

**ASƏF NADİROV,**
Azərbaycan Milli Elmlər Akademiyasının
rəyasət heyətinin üzvü, akademik

# AZƏRBAYCAN İQTİSADİYYATİNİN BÖYÜK QURUCUSU

Çox uzun bir tarixi inkişaf yolu keçmiş Azərbaycan iqtisadiyyatı müxtəlif dövrlərdə öz təşəkkülünün müəyyən xüsusiyyətləri ilə səciyyələnmişdir. İqtisadiyyatın ümumi inkişaf səviyyəsi və yaranmış istehsal istiqamətləri zamanın tələbləri ilə daimə təkmilləşməyə məruz qalsa da, onun başlıca təyinatında baş verən dəyişikliklərin əhatə dairəsi uzun müddət ərzində o qədər də əsaslı olmamışdır. Bir sıra amillərin, o cümlədən əsasən Azərbaycanın ictimai-siyasi vəziyyəti, yəni onun asılı əyalət durumu bir müddət məmləkətin iqtisadi inkişafının xarakterini və əsas yönümünü müəyyən etmişdir.

XİX əsrin 70-ci illərindən başlayaraq neftçıxarma, sonralar isə qazçıxarma sənaye sahələrinin sürətlə inkişafı əsasında təşəkkül edən Azərbaycan iqtisadiyyatının tərkibi ayrı-ayrı dövrlərdə müxtəlif sahələrin yaranması hesabına genişlənsə də, bütövlükdə sonrakı 100 il ərzində əsasən ənənəvi istiqamətdə öz varlığını davam etdirmişdir.

Əgər obyektiv səbəblər üzündən bəzi qısa müddətli dövrlər nəzərə alınmasa, Azərbaycan iqtisadiyyatı öz inkişafının başlanğıc mərhələsindən XX əsrin 60-cı illərinə qədər həmişə yüksək dinamik artımı ilə səciyyələnmişdir. Bütün bu bir əsrlik dövrün əsas mərhələlərində sürətlə artan Azərbaycan iqtisadiyyatı bununla belə çox ziddiyyətli inkişaf əlamətləri ilə seçilmişdir. Hər şeydən əvvəl iqtisadiyyatın aparıcı sahəsi olan sənayenin inkişafı bütün dövrlərdə müxtəlif dərəcədə birtərəfliliyi ilə fərqlənmişdir. Belə ki, məhsul istehsalının həcminə görə neft və neft-kimya sənayesi ilk dövrlərdəki 80-90 və daha çox faizdən, sonrakı illərdə, hətta sənayenin tərkibi bir sıra başqa sahələr hesabına genişlənsə də, onun sahələri arasında xüsusi çəkisi 60-cı illərin əvvəllərinə qədər yenə də çox yüksək səviyyədə-təxminən 30 faizə qədər həcmində qalmaqda davam etmişdir. Bütün hallarda hər bir ölkənin yüksək inkişaf səviyyəsi göstəricisi olan maşınqayırmanın, onların sənayesinin tərkibində önəmli yer tutması müqabilində həmin dövrlər bu mühüm sənaye sahəsi respublika ümumi sənaye məhsulunun cəmisi 11 faizinə qədərini verirdi, onun da 40 faizə qədəri təkcə bir sahənin-neft maşınqayırma sənayesinin payına düşürdü. Başqa əhəmiyyətli sənaye sahələrinin də (energetika, qara və əlvan metallurgiya, kimya və s.) inkişafı üçün hər cür imkanların və böyük tələbatın olmasına baxmayaraq, onların ümumi inkişaf səviyyəsi xeyli aşağı idi. Bir sıra aparıcı sənaye sahələrində məhsul istehsalının

əsas kütləsini xammalın ilkin emalından əldə edilən məhsullar təşkil edirdi. Çox çeşidli hazır sənaye məhsulları ilə Azərbaycanın böyük tələbatını ödəmək üçün başqa yerlərdən gətirilirdi və əksər hallarda onlar respublikadan aparılan yarımfabrikat xammaldan istehsal olunurdu. Müxtəlif təbii sərvətlərlə xeyli zəngin olan Azərbaycanda onların istifadəsinin ilkin mərhələləri üzrə istehsal sahələri hakim yer tutduğundan, zahirən sankı respublikada çoxlu sənaye sahələrinin mövcud olması təsəvvürü yaranırdı. Əslində isə onların çoxunun inkişaf miqyası son dərəcə məhdud və istehsal mərhələləri yarımçıq idi. İqtisadiyyatın aparıcı sahəsi olan sənayenin inkişafındakı belə ciddi uyğunsuzluqlar respublikanın sosial-iqtisadi həyatında çoxlu ağır problemlər yaradırdı. İlk növbədə istehsalın səmərəli təşkili tələblərinə çox hallarda riayət edilməməsi üzündən, onun bir sıra sahələrində ardıcıl və məqsədəuyğun inkişaf sisteminin olmaması məhsul hasilatının iqtisadi faydalılığını xeyli aşağı salırdı. Hasil edilən məhsulların həcmində xammalın ilkin emalının böyük yer tutması əmək ehtiyatlarının geniş təkrar istehsalının baş verdiyi Azərbaycanda uzun illər əsassız olaraq sənayenin orta əmək tutumluq səviyyəsinin xeyli aşağı olmasına səbəb olmuşdur. Bu da respublikada böyük miqdarda işsizlərin yaranması ilə nəticələnirdi. Sənayenin tərkibində xammalın ilkin emal yönümlü sahələrin geniş yer tutması daha çox respublikanın yerli istehsal hesabına çoxcəhətli tələbatını ödəyən sahələrin məhdud inkişafı ilə əlaqədar idi. Bütövlükdə sənayenin uzun müddət birtərəfli inkişafı onun ayrı-ayrı ərazi hissələri arasında ümumi sosial-iqtisadi inkişaf səviyyəsinə görə ciddi fərqlərin yaranmasına səbəb olmuşdu. Onu demək kifayətdir ki, XX əsrin 70-ci illərinin ərəfəsində respublika ərazisinin 90 faizdən və əhalisinin 70 faizdən artığını əhatə edən rayonlar onun ümumi sənaye məhsulunun 30 faizdən azını verirdilər. Sənaye məhsulunun 70 faizdən çoxu Abşeronun kiçik ərazisində cəmləşən müəssisələrin payına düşürdü. Bütün bunlar əhalinin respublika ərazisi daxilində səmərəli məskunlaşmasına, onun rifahının yüksəldilməsinə, mədəni-məişət xidmətinin səviyyəsinə, yerli əmək ehtiyatlarından tam istifadə edilməsinə mənfi təsir göstərirdi.

Kənd təsərrüfatının məhsuldar qüvvələri də səmərəli istifadə olunmadığından onun ümumi inkişaf səviyyəsi, bəzi sahələrin məhsuldarlığı və istehsalın faydalılığı xeyli aşağı idi. Çox acınacaqlı hal o idi ki, keçən əsrin 70-ci illərinin ərəfəsində təbii iqtisadi imkanları xeyli oxşar olan respublikalara (Özbəkistan, Qırğızıstan, Türkmənistan, Moldaviya) nisbətən Azərbaycanda əkinçilikdə istifadə edilən hər hektar torpaq sahəsindən 1,4-2,1 dəfə az məhsul istehsal edilirdi.

İqtisadiyyatın bütün başqa aparıcı sahələrində də belə acınacaqlı gerilik hökm sürürdü. Təəccüb doğuran isə bu idi ki, uzun müddət gerilik səviyyəsində olan Azərbaycan iqtisadiyyatını dirçəltmək əvəzinə, onun ildən-ilə gerilməsi prosesi davam edirdi və əsas sosial-iqtisadi göstəricilərə görə respublika ilə başqa müttəfiq respublikalar arasında fərq getdikcə dərinləşirdi. Keçən əsrin 60-cı illərində vəziyyət daha kəskin xarakter almağa başladı. Bu müddət sənaye məhsulunun, sənayedə çalışan işçilərin sayının,kapital qoyuluşunun və təkcə



Türkmənistandan çox cüzi fərqlənməklə milli gəlirin artımına görə, Azərbaycan başqa müttəfiq respublikalar arasında ən axırıncı yerdə dururdu. Əkin sahələri artmaq əvəzinə ildən-ilə azalırdı, Azərbaycan şəraitində kənd təsərrüfatında həyati əhəmiyyət kəsb edən suvarılan sahələr demək olar ki, genişləndirilmirdi. Bütün bunlar artıq 60-cı illərin sonunda əhalinin güzaranının pisləşməsin də və bir sıra ciddi sosial-iqtisadi vəziyyətin yaranmasına səbəb oldu. Belə ki, 1969-cu ildə fəhlə və qulluqçuların orta aylıq əmək haqqı bütövlükdə Sovet İttifaqı üzrə 117 rubl təşkil edirdisə, Azərbaycanda bu hədd cəmisi 105 rubla bərabər idi. Buna baxmayaraq, həmin il 1965-ci ilə nisbətən ölkədə əhalinin real gəlirləri 33 faiz artdığı halda, Azərbaycanda isə 25 faizə bərabər olmuşdur.

Beləliklə, XX əsrin 60-cı illərinin sonunda Azərbaycanda son dərəcə gərgin sosial-iqtisadi vəziyyət yaranmışdı. 1969-cu ilin iyul ayının 14-də respublikanın rəhbəri olaraq, Azərbaycan KR MK-nin birinci katibi seçilən H.Ə.Əliyevə miras qalan geri iqtisadiyyatı tezliklə qaldırmağı həyat onun qarşısına çox ciddi, mürəkkəb və məsuliyyətli tarixi bir vəzifə kimi qoydu. İlk növbədə millətə özünü dərketmənin yeni ruhunu gətirən və daxili inamını artıran müdrik, səfərbəredici fəaliyyət kursu müəyyən etmək, Sovet cəmiyyətinə xas olan çoxlu qadağanlardan, o cümlədən ayrı-ayrı respublikalara, xüsusən də Azərbaycan barədə yaranan bir sıra məhdudiyyətlərdən cəsarətlə yan keçmək qətiyyəti, elmi əsaslarla respublikada məhsuldar qüvvələrin geniş inkişafını təmin etmək üçün SSRİ rəhbərliyindən daha çox vəsait və maddi-texniki resurslar almaq bacarığı, Azərbaycanı ön cərgəyə çıxarmaq yolunda bəzi respublikaların mümkün qısqanclıq və onun iqtisadi yüksəlişinə mane olmaq niyyətlərinin qarşısını məharətlə alan, düşünülmüş siyasət aparmaq tələb olunurdu.

Respublikanın yeni rəhbərinin səmərəli və məqsədyönlü fəaliyyəti ilə Azərbaycanın sosial-iqtisadi tərəqqisində çox sürətlə baş verən böyük uğurların əsasında hər şeydən əvvəl onun öz imkan və tələblərinə,habelə istehsalın elmi əsaslara söykənən inkişaf qaydalarına uyğun iqtisadiyyatın sahmanlı inkişaf kursunun müəyyən edilməsinin və ardıcıl həyata keçirilməsinin həlledici əhəmiyyəti oldu.

XX əsrin 70-ci və 80-cı illərinin birinci yarısında Azərbaycanda məhsuldar güvvələrin artırılması strategiyası həm əvvəlki dövrlərdə itirilmiş sosial-iqtisadi imkanları müəyyən dərəcədə əldə etmək, həm də zamanın gedişi ilə ayaqlaşmaqla inkişafı davam etdirmək tələb olunurdu.

Bu miqyaslı, eyni zamanda çox mürəkkəb məsələlərin həlli böyük həcmdə vəsait qoyuluşu tələb edirdi. İftixar hissi ilə demək lazımdır ki, o zaman bu çətin vəzifəni respublikanın başçısı, ona məxsus müdrikliklə, uğurla həll etdi. Bütövlükdə cəmisi 16 ildə (1970-1985-ci illərdə) Azərbaycanın sosial-iqtisadi inkişafına 32 milyard rubl vəsait sərf edildi. Heç vaxt, hətta bütövlükdə öz inkişafının ən uzun dövrlərində, belə Azərbaycanın inkişafı üçün bu qədər vəsait ayrılmamışdı. Sovet dövrünün əvvəlki 49 ilində (1920-1969-cu illər) bütün mənbələr hesabına respublikanın sosial-iqtisadi inkişafına cəmisi 14,3 milyard rubl

vəsait sərf edilmişdi. Deməli, çox qısa (1970-1985-ci illərdə) əvvəlki ən uzun bütün sovet dövrünə nisbətən xalq təsərrüfatının inkişafına 2,2 dəfə çox vəsait ayrılmışdı. Başqa sözlə, 16 ildə orta hesabla hər il istifadə olunan kapital qoyuluşunun həcmi 2 milyard rubldan çox təşkil edirdi ki, bu da əvvəlki, təxminən 50 ilin orta göstəricisindən ( 288 milyon rubl ) 7 dəfədən artıq idi. Bu da əlamətdardır ki, 1970-1985-ci illərdə 3 cənubi Qafqaz respublikasına ayrılan vəsaitin 41 faizə qədəri təkcə Azərbaycanın payına düşürdu. Respublikanın bütün Sovet İttifaqının ümumi kapital qoyuluşunda yeri isə 1965-ci ildəki 1,47- dən 1985-ci ildə 1,85 faizə qədər qalxmışdı. Onu da xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan başçısının fədakar fəaliyyəti nəticəsində respublikaya ayrılan vəsaitin öz vaxtında səmərəli istifadə edilməsi və onun böyük faydasının yaratdığı etibarlı inam ölkə rəhbərliyinin valyuta ehtiyatlarından yüz milyonlarla dollar və mərkəzi orqanların vəsaitləri hesabına mühüm obyektlərin ( Kondinsioner, Dərin dəniz özülləri zavodları, əzəmətli inzibati binalar və s. ) də tikitisi üçün əlavə vəsaitlər ayrılırdı.

Həmin dövrdə respublika iqtisadiyyatının inkişafına yönəldilən əsaslı vəsaitin və resursların böyük miqyası, onlardan məqsədyönlü istifadə özünün diqqətəlayiq önəmli nəticələrini verdi. Çox keçmədi ki, Azərbaycanda məhsuldar qüvvələrin inkişafında son dərəcə köklü kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verdi. Bu dövr ölkədə istehsal potensialının miqyaslı artımı nəticəsində 1985-ci ildə 1970-ci ilə nisbətən, yəni Sovet dövlətinin əvvəlki 50 ildə yaratdığı istehsal potensialının verdiyindən 2,6 dəfə çox milli gəlir, 2,9 dəfə çox sənaye məhsulu, 2,3 dəfədən çox kənd təsərrüfatı məhsulu hasil edildi. Bu heyranedici nailiyyətlər Azərbaycan iqtisadiyyatının vüsətli inkişafına dəlalət etsə də, onlar hələ bu sahədə həyata keçən dərin keyfiyyət dəyişikliklərinin mahiyyətini tam üzə çıxarmır. Halbuki, bu istiqamətdə baş verən əsaslı yeniliklər daha önəmli olmuşdur.

Hər şeydən əvvəl iqtisadiyyatın əsas sahəsi olan sənayenin inkişafında hər cəhətdən böyük dəyişikliklər həyata keçirildi. Respublikada mövcud olan yüzlərlə müəssisələrin yeni texnika və texnologiyalar əsasında təzələnməsi, habelə genişləndirilməsi ilə yanaşı, Azərbaycanda sənayenin müxtəlif sahələrində çox mühüm 218 yeni müəssisə tikilib istifadəyə verildi. Az vaxt içərisində bu sahədə əldə edilən uğurların miqyası barədə düzgün təsəvvür yaratmaq üçün belə bir faktı göstərmək kifayətdir ki, bu yeni müəssisələr sovet dövrünün əvvəlki 50 ilində tikilib istifadəyə verilən zavod və fabriklərin ümumi miqdarının 70 faizə qədərini təşkil edirdi. Başqa sözlə, həmin uzun dövrdə əgər ildə orta hesabla 6,2 yeni müəssisə tikilib, istifadəyə verilirdisə,1970-1985-ci illərdə belə müəssisələrin sayı 13,6-ya çatırdı. Sənaye sahəsində həyata keçirilən bu misli görünməmiş yeniləşmə ilk növbədə illərdən bəri hakim olan birtərəfli yönümün əsaslı şəkildə dəyişilməsində əhəmiyyətli rol oynadı. Bu dəyişikliklər bir neçə mühüm istiqamətdə, həm də sənayenin bütün sahələrini əhatə etməklə həyata keçirilirdi. Hər şeydən əvvəl o ərəfədə obyektiv səbəblər üzündən hasilatı getdikcə azalmağa başlayan neftçıxarmada sabitləşmə təmin olunmaqla bərabər, neft emalı sənayesində güclü müasir ELAU-AVT qurğularının yaradılması nəticəsində Azərbaycan, nəinki tam həcmdə öz istehsal etdiyi, həm də Sovet İttifaqının başqa respublikalarından gətirilən xam nefti emal etmək imkanı əldə etdi. Bununla da neft sənayesinin Azərbaycan iqtisadiyyatındakı böyük rolu saxlanıldı. Bundan başqa ilk dəfə Azərbaycanda qaz sənayesinin inkişafında ən yüksək səviyyə əldə edildi və qaz hasilatı 1970-ci ildəki 5,5-dən 1985-ci ildə 14 milyard kubmetrə qalxdı. Bununla da Azərbaycan, nəinki başdan-başa qazlaşdırıldı, müəyyən həcmdə bu qiymətli yanacaq qonşu respublikalara da verilirdi. İqtisadiyyatın ümumi inkişafını qabaqlamaq kimi mühüm prinsipi düzgün qiymətləndirməklə, həmin dövrdə respublikada elektrik energetika sənayesinin inkişafı xüsusi diqqət mərkəzində idi. Tezliklə Cənubi Qafqazda ən iri yanacaq elektrik stansiyası olan Mingəçevirdə Azərbaycan DRES-ı (2400 min kilovat), Şəmkir SES (380 min kvt), orta həcmli Naxçıvan, Sərsəng Su Elektrik Stansiyaları tikildi, Yenikənd SES-nin tikintisinə başlandı, habelə mövcud stansiyaların yeniləşməsi və genişləndirilməsi sahəsində əsaslı işlər görüldü. Nəticədə respublikada elektrik enerjisi hasilatı 1970-ci ildəki 12-dən 1985-ci ildə 20,7 milyard kilovatsaata qalxdı. Öz tələbatını tam ödəməklə bərabər, Azərbaycan elektrik enerjisi idxal edən respublikaya çevrildi. Azərbaycan 1985-ci ildə Cənubi Qafqazda hasil edilən ümumi elektrik enerjisinin 42 faizini verirdi.

Metallurgiya sənayesinin inkişafında böyük dönüş yaradıldı. Qara metallurgiyada respublikanın böyük tələbatını ödəmək üçün polad əridilməsi 1970-ci ildəki 733-dən 1985-ci ildə 853 min tona çatdırıldı, neft sənayesində geniş istifadə edilən borular və başqa prokat məhsulların istehsalı xeyli artırıldı. Əlvan metallurgiyanın inkişafında çox əlamətdar keyfiyyət dəyişiklikləri baş verdi, ilk növbədə hazır məmulatlar istehsalının miqyası xeyli genişləndirildi. Zəngin yerli xammalın istifadəsi əsasında inkişaf edən əlvan metallurgiya sənayesində xammalın ilkin emalı mərhələsindən sonra, getdikcə daha çox müxtəlif hazır məhsullar istehsalının genişlənməsi əsas istiqamət kimi seçildi. Bu məqsədlə, Sumqayıt alüminium zavodunun istehsal gücü artırılaraq, burada Sovet İttifaqının bir çox soyuducu zavodlarını təmin edən buxarlayıcılar istehsalı yaradıldı, Bakıda, Gəncədə, Naxçıvanda müxtəlif çeşidli hazır alüminium məhsulları istehsal edən müəssisələr tikilib istifadəyə verildi.

Azərbaycan sənayesinin həmin dövrlər ən düzgün seçim meyllərindən biri respublikada güclü maşınqayırma kompleksinin yaradılması təşəbbüsü oldu. Nəticədə onun 1970-1985-ci illərdə artım sürəti (5,8 dəfə) sənayenin bütün başqa sahələri içərisində ən yüksək idi. Respublika daha miqyaslı şəkildə bütün Sovet İttifaqının əsas neft-mədən avadanlığı istehsalı mərkəzinə çevrildi və ölkədə bu məhsulların istehsalının 70 faizi Azərbaycanın payına düşürdü. Sahənin elektrotexnika, energetika maşınqayırma, cihazqayırma kimi mövcud sahələrin inkişaf miqyasının xeyli genişlənməsi ilə yanaşı, respublikada elektronika, radioelektronika, dəzgahqayırma və başqa yeni sahələrin yaranmasında da diqqətə-

layiq nailiyyətlər əldə edildi. Məhz bunların nəticəsi oldu ki, respublikanın artıq təşəkkül edən çoxsahəli sənayesinin quruluşunda maşınqayırma və metal emalı sənayesinin xüsusi çəkisi birdən-birə 16,4 faizə qalxdı. Maşınqayırmanın belə yüksək artımı respublikada bir sıra mühüm sosial-iqtisadi vəzifələrin həllində əhəmiyyətli rol oynadı.

Neft emalı sənayesinin güclü artımı öz növbəsində neft-kimya və kimya sənayesinin artımına müsbət təsir göstərdi. Həmin dövr respublikanın ən sürətlə artan (3 dəfədən çox) sahələrindən olan kimya və neft-kimya sənayesinin inkişafında baş verən önəmli meyllərdən biri ondan ibarət idi ki, onun tərkibində hazır məhsullar və ya onların genişlənməsi imkanlarına zəmin yaradan sahələrin üstün artımı həyata keçirilirdi. Bu qəbildən Sumqayıtda nəhəng EP-300 kompleksinin, Salyanda plastik kütlə emalı zavodu və s. müəssisələrin tikilməsini, mineral gübrələr, şinlər, sintetik yuyucu vasitələri, kaustik soda, sulfanol, polimer tikinti materialları üzrə istehsal sahələrinin genişləndirilməsinin müstəsna əhəmiyyəti oldu.

Keçən əsrin 70-ci illərində və 80-cı illərin birinci yarısında böyük tikinti meydanını xatırladan Azərbaycanın demək olar ki, hər cür təbii tikinti-materiallarına malik olduğu zənginliklərindən respublikanın böyük tələbatını ödəmək səviyyədə istifadə edilməsi təşkil edildi.

Həmin dövr Azərbaycanın ənənəvi sənaye sahələrindən olan yüngül və yeyinti sənayesinin ümumi inkişaf yönümü və istehsal quruluşu tanınmaz dərəcədə dəyişdirildi. Onların inkişaf meylini Azərbaycanın zəngin imkanlarına daha çox uyğunlaşdırmaq və bu sərvətlərdən səmərəli istifadə edilməsi məqsədlərinə yönəltmək, habelə yüngül və yeyinti sənaye sahələrinin respublikanın mühüm sosial-iqtisadi vəzifələrinin həllində rolunu artırmaq üçün geniş miqyaslı tədbirlər həyata keçirildi. İlk növbədə bu sahələrin xammal bazasını təşkil edən müxtəlif kənd təsərrüfatı məhsulları istehsalının böyük həcmdə çoxalması yüngül və yeyinti sənayenin bütün sahələrində məhsul hasilatının dəfələrlə artımını təmin etdi. Təkcə yeyinti sənayesində məhsul istehsalının həcmi 4 dəfədən çox artdı. Bu dövr Azərbaycan sənayesi üçün çox zəruri olan istehsal meylininyerli xammaldan hazır məhsullar hasil etmək bütövlükdə yüngül və yeyinti sənaye sahələrində məhsul hasilatının böyük miqyasda artırılmasına müsbət təsir göstərmiş oldu. Məsələn, yerli xammal əsasında bütün növ parça məmulatları istehsalı respublikada 1970-ci ildəki 132-dən 189 milyon kvadrat metrə, xalça və xalça məmulatları 823 mindən 4045 min kvadrat metrə qaldırıldı, başqa hazır xalq istehlakı malları da böyük həcmdə artdı. Çoxlu yeni müəssisələr tikmək hesabına yeyinti sənayesində bu istiqamətdə köklü dəyişikliklər baş verdi. Qısa vaxtda geniş çeşidli konservlər istehsalı 1970-ci ildəki 185-dən 620 milyon şərti bəmiyə, ət məhsulları müvafiq qaydada 48-dən 77 min tona, üzlü süd məhsulları 77-dən 220 min tona, qənnadı məhsulları 44-dən 95 min tona çatdırıldı və s.

Beləliklə, bütün əvvəlki dövrlərdə Azərbaycan iqtisadiyyatının ən ağrılı yeri olan, onun sənayesinin birtərəfli inkişafının aradan qaldırılmasında 1970 və



1980-ci illərdə çox ciddi addımlar atıldı. Əslində Azərbaycan sənayesi keçdiyi inkişaf tarixinin yeni dövrünə başlayaraq,ilk dəfə idi ki, öz zəngin sərvətlərindən daha əhatəli istifadə etməklə, onun inkişaf istiqamətinin və quruluşunun təkmilləşməsi malik olduğu imkanlara və tələbatına daha çox uyğun quruldu. Nəticədə istehsalın səmərəsinin artmasında və onun respublikanın sosial-iqtisadi inkişafında rolunun güclənməsində böyük nailiyyətlər əldə edildi. Sənayenin güclü inkişafı nəticəsində onun müxtəlif sahələrində çox az vaxtda 138 min əlavə iş yerləri yarandı ki, bu da Azərbaycan sənayesinin 1940-cı ilə qədərki uzun inkişaf dövründə malik olduğu işçilərin (130 min) sayına bərabər idi. Sənayenin birtərəfli inkişafı meylinin tədricən azaldılması sahəsində əsası qoyulmuş böyük dönüşün elə ilk mərhələlərində respublika ərazisinin bütün hissələrinin sərvət və başqa imkanlarından istifadənin genişlənməsi nəticəsində, onun iqtisadi rayonlarının sənaye potensialı sürətlə artmağa başladı. Uzun müddət sənayenin inkişaf səviyyəsinə görə iqtisadi rayonlar arasında yaranmış kəskin fərqlərin azalması meylinin gücləndirilməsinin sosial-iqtisadi mahiyyəti isə son dərəcə vacib və əhəmiyyətli idi. Artıq 1985-ci ildə Azərbaycanın uzun müddət xeyli yüksək sənaye potensialına malik Abşeron iqtisadi rayonunun hüdudlarından kənarda olan və əvvəllər zəif sənaye inkişafı ilə səciyyələnən rayonların respublikanın ümumi sənaye məhsulu istehsalında xüsusi çəkisi 40 faizə qədər qalxdı. Bir çox rayonlar yaranan böyük istehsal potensialı nəticəsində respublika iqtisadiyyatının inkişafında aparıcı mövqelərə çıxdılar. Məsələn, Mərkəzi Aran iqtisadi rayonu Azərbaycanın əsas energetika, neft, maşınqayırma, tikinti, yüngül, yeyinti, Gəncə-Qazax iqtisadi rayonu metallurgiya, maşınqayırma, yüngül, yeyinti, Şəki-Zaqatala və Naxçıvan MR-sı əsas yüngül, yeyinti sənaye rayonlarından birinə çevrildilər və s.

Respublikanın rəhbəri Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının başqa sahələri kimi, kənd təsərrüfatının inkişafı üzrə müəyyən etdiyi çox dərin düşünülmüş və möhkəm elmi əsaslara söykənən strateji kursu da böyük nəticələr verdi. Həmin dövrlər kənd təsərrüfatında həlledici əhəmiyyətə malik 3 məsələnin eyni vaxtda uğurlu həlli, onun nə qədər böyük inkişaf imkanlarına malik olmasını üzə çıxardı. Onlardan biri Azərbaycan üçün müstəsna əhəmiyyəət kəsb edən suvarma əkinçiliyinin genişləndirilməsi idi. Respublikada bu sahədə misli görünməmiş fəaliyyət başlandı. Əgər sovet dövrünün əvvəlki 50 ilində su təsərrüfatının inkişafına cəmisi 755 milyon rubl vəsait sərf edilmişdisə, 1970-1985-ci illərdə həmin məqsədlər üçün 3 milyard rubldan çox vəsait mənimsənildi, yeni su ambarları yaradıldı, xeyli suvarma kanalları çəkildi, mexaniki suvarma sistemləri quruldu. Nəticədə suvarılan əkin sahələrinin sahəsi genişləndirilərək, 1970-ci ildəki 1127-dən 1985-ci ildə 1318 min hektara çatdırıldı, çoxlu sahələrin suvarma şəraiti yaxşılaşdırıldı. İkinci məsələ kənd təsərrüfatı bitkilərinin, onların hər birinin inkişafı üçün ən münasib olan təbii iqtisadi zonalarda genişləndirilməsi və ixtisaslaşması idi. Xeyli müxtəlif təbii şəraitə malik Azərbaycanda bu məsələnin müstəsna əhəmiyyəti barədə uzun illər ərzində danışılsa da, lakin

onun əməli olaraq geniş miqyasda gerçəkləşməsinə ancaq 70-ci illərdən başlandı. Üçüncü məsələ isə kənd təsərrüfatının elmi əsaslarla aparılması, onun təşkili və intensivləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər idi. Kənd təsərrüfatının o zamankı inkişaf təcrübəsi göstərdi ki,ümumiyyətlə iqtisadiyyatın artımının səmərəli inkişaf istiqamətlərinin məqsədlərinin və imkanlarının düzgün müəyyən edilməsi xeyli faydalı nəticələr verə bilər. Bu cəhətdən çox əlamətdardır ki, 1970-1985-ci illərdə əkinçilikdə istifadə edilən torpaq sahələri cəmisi 20 faizdən bir qədər artıq genişləndiyi halda, onun ümumi məhsulunun həcmi 3,2 dəfə artdı.

Maraqlıdır ki, məhz kənd təsərrüfatının məhsuldar qüvvələrindən səmərəli və məqsədəuyğun istifadə edilməsi hesabına kiçik əraziyə və nisbətən məhdud istifadə edilən torpaq sahələrinə malik olan Azərbaycan böyük həcmdə verdiyi müxtəlif məhsullara görə, geniş imkanlara malik çox iri respublika təsəvvürünü yaradırdı. Təsadüfi deyil ki, Azərbaycan 1985-ci ildə bütövlükdə Sovet İttifaqında əkinçilikdə istifadə edilən torpaq sahələrinin cəmisi 0,8 faizini əhatə etdiyi halda, onun hasil etdiyi ümumi məhsulun isə 2 faizdən çoxunu verirdi. Bir sıra mühüm məhsulların istehsal həcminə görə Azərbaycan bütün Sovet İttifaqı miqyasında aparıcı yerlərdə dururdu. Məsələn, 1985-ci ildə Azərbaycan 1790 min ton üzüm istehsal edərək, Sovet İttifaqı üzrə onun ümumi istehsalının 31 faizini (müttəfiq respublikalar içərisində 1-ci yerdə dururdu) vermişdi. Həmin il 60 min ton tütün istehsalına görə də SSRİ-də birinci yerdə dururdu. İldə 30 min tondan çox yaşıl çay yarpağı toplayan Azərbaycan ölkədə ikinci yeri tuturdu. Sovet İttifaqında ipək xammalının istehsalına görə 3-cü, xam pambıq toplanmasına görə 4-cü, tərəvəz yığılmasına görə 5-ci yerdə duran Azərbaycan, başqa mühüm sahələrin istehsalı üzrə də o zamanlar çox böyük nailiyyətlər qazanmışdı. ümumiyyətlə, 1970-1985-ci illərdə kənd təsərrüfatının imkanlarından səmərəli istifadə edilməsinin zəngin təcrübəsinin böyük nəticələri çox önəmli nümunə kimi, bu mühüm sahənin inkişafında nə qədər geniş ehtiyat mənbələrinin mövcud olduğuna dəlalət edir. Onu da vurqulamaq lazımdır ki, bu böyük dönüş gələcək daha yüksəs uğurların hələ ancaq başlanğıcı idi. Xatırlatmaq yerinə düşər ki, 60-cı illərin axırında Sovet İttifaqının oxşar təbii-iqtisadi şəraitə malik müttəfiq respublikaları ilə etdiyimiz müqayisəli qiymətləndirməyə bir də qayıdaraq, göstərmək lazımdır ki, 80-ci illərin ortalarında o dövrlərdən fərqli olaraq Azərbaycanda əkin sahələrində istifadə edilən torpaq sahəsinin hər hektarı orta hesabla artıq Qırğızıstana,Türkmənistan,Moldoviyaya, Ermənistana nisbətən daha çox məhsul verməklə, demək olar ki, Özbəkistanla eyni göstəriciyə malik idi.

Həmin dövr Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsinin çox mühüm bir xüsusiyyətini əlahiddə qeyd etmək son dərəcə vacibdir. Əvvəlki illərdən fərqli olaraq, o zaman iqtisadiyyatın bütün sahələri bir-birilə əlaqəli, qarşılıqlı tamamlama əsasında inkişaf edirdi. Səciyyəvidir ki, 1970-1985-ci illərdə ümumi iqtisadi yüksəlişdən kənarda qalan heç bir istehsal sahəsi yox idi. İqtisadiyyatın sahmanlı inkişafının nəzərdə tutulan vəzifələri eyni tərzdə və vüsətlə tikinti, nəqliyyat, hər növ infrastruktur sahələrinin də artımını təmin edirdi. Ancaq bir neçə ümumi göstərici ilə qeyd etmək kifayətdir ki, qara örtüklü avtomobil yollarının uzunluğu 1970-ci ildəki 13,4-dən 22,4 min kilometrə çatdırıldı, yüz kilometrlərlə yeni dəmir yol xətləri, o cümlədən həmişə strateji əhəmiyyət daşıyacaq Yevlax-Balakən dəmir yolu xətti çəkildi, respublikada böyük həcmdə inşaat işlərini həyata keçirmək üçün dövlət tikinti və quraşdırma müəssisələrinin sayı 322-dən 569-a çatdırıldı, onların istehsal gücləri xeyli artırıldı və s.



Beləliklə, 1970-1985-ci illərdə Azərbaycan iqtisadiyyatında baş verən görünməmiş quruculuq mərhələsinin nəticələrini ümumiləşdirərək, şəksiz etiraf etmək lazımdır ki, iqtisadiyyatın həmin dövr qalxdığı səviyyə onun bütün əvvəlki dövrlərdəki inkişafının ən yüksək zirvəsi idi. Respublikanın rəhbəri möhtərəm Heydər Əliyevin çox uzaqgörənliklə müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının başlıca mahiyyətini onun hərtərəfli kompleks inkişafı təşkil edirdi. Əsasən də Azərbaycanın milli iqtisadiyyatının, ilk növbədə isə onun daha çox öz mənafelərinə uyğun yenidən təşəkkülü məqsədlərini güdən, lakin o zamankı mürəkkəb şəraitdə hər cür əngəllərdən yan keçərək mahiranə müəyyən edilmiş bu inkişaf kursu əslində respublikanın müstəqil təsərrüfat sisteminin yaradılması yolunda atılan son dərəcə cəsarətli addım idi. Ona görə də həmin dövr Azərbaycan üçün zəruri olan çoxlu yeni sahələr yarandı, bu qəbldən olan mövcud sahələrin istehsal imkanları genişləndirilərək, eyni zamanda onların inkişaf yönümü milli maraqlara uyğun istiqamətlərdə nizamlanmağa başlandı. Ona görə də Azərbaycanın iqtisadi inkişafının xüsusi tarixi mərhələsini təşkil edən bu dövrün ümumi yekunlaşdırıcı nəticələri ondan ibarətdir ki:

- əvvəllər heç vaxt belə qısa zaman çərçivəsində Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin eyni tərzdə bu qədər yüksək artımına təsadüf edilməmişdir;
- bu illərin əzəmətli quruculuq fəaliyyəti nəticəsində respublikada iqtisadiyyat özünün inkişaf miqyasına görə ən yüksək zirvəsinə qalxdı;
- heç zaman Azərbaycan iqtisadiyyatı o dövrlərdə olduğu qədər öz təbii sərvət ehtiyatlarından və istehsal potensialından bu qədər daha dolğun istifadə etmək imkanı əldə etməmişdi;
- respublika iqtisadiyyatının istehsal yönümünün çoxcəhətliliyi və quruluşunun təkmilliyi və daha çox mükəmməlliyi özünün keçdiyi tarixi mərhələnin heç bir dövründə bu qədər məqsədli olmamışdır;
- respublikanın qarşısında duran başlıca önəmli sosial-iqtisadi problemlərin xeyli əhatəli və çox uğurla həllinə istiqamətləndirilən tədbirlər özünün məqsədliyi və birbaşa təyinatı ilə bu dövrlər xüsusilə müntəzəm və aydın şəkildə təzahür etmişdir;
- o dövrlər respublikada yaranmış güclü istehsal potensialı ölkənin öz

müstəqilliyini qazandığı ərəfədə baş verdi və hadisələrin sonrakı gedişi göstərdi ki, ancaq onun sayəsində Azərbaycan iqtisadiyyatının müxtəlif səbəblər üzündən düçar olduğu ağır böhrandan gözlənilən çox kəskin nəticələrin əsaslı şəkildə qarşısını almaq mümkün oldu;

- məhsuldar qüvvələrin həqiqi şərait və imkanlara uyğun olaraq inkişafı özü-özlüyündə hələ o vaxtlar Azərbaycanın iqtisadiyyatında dünya təsərrüfat sisteminə xas olan bir sıra ünsürlərin yaranmasına səbəb oldu ki, bu da ölkənin müstəqilliyindən sonra onun sosial-iqtisadi həyatında öz müsbət rolunu oynadı;
- bütövlükdə Azərbaycanın milli iqtisadiyyatı onun öz mənafe və məqsədlərinə daha çox uyğun gələn səviyyəsinin keyfiyyətcə yeni, xeyli yüksək mərhələsinə qalxdı.

Təəssüflər olsun ki, Azərbaycanın milli iqtisadiyyatının bütün tələblərə cavab verən müəyyən edilmiş bu əsl təşəkkül yönümü 80-ci illərin ikinci yarısından kəskin şəkildə zəifləməyə başladı. Həmin dövrlər bütövlükdə Sovet İttifaqının iqtisadiyyatının zəifləməsinin təsiri altında, onun o zamankı rəhbərlərinin Azərbaycana qarşı qərəzli mövqeləri, bunun nəticəsi olaraq onların uydurma mülahizə və dəlillərlə respublika iqtisadiyyatında önəmli rol oynayan üzümçülük-şərabçılıq kompleksinin inkişafının məhdudlaşdırılması təşəbbüsləri,istismara verilmək ərəfəsində olan çoxlu mühüm sənaye müəssisələrinin və başqa yarımçıq tikintilərin maliyyələşdirilməsinin dayandırılması, xarici havadarlarının güclü iqtisadi və hərbi köməkliyi ilə Dağlıq Qarabağı zorla işğal etmək üçün Ermənistanın Azərbaycana qarşı başladığı təcavüz və bu işğalçılıq siyasətinin acı aqibətləri respublika iqtisadiyyatının geriləməsinin əsas səbəblərindən oldu. Qəti inamla demək olar ki, 1988-1992-ci illərdə məhz Heydər Əliyevin Azərbaycan rəhbərliyindən kənarda olması üzündən, bu proseslərin bir qisminin, ümumiyyətlə qarşısını almaq və ya onların ağır nəticələrə gətirib çıxarmaq mümkünlüyünü dərinləşməyə qoymamaq imkanı olmadı. Azərbaycanın o zamankı rəhbərlərinin fəaliyyəti isə bu hadisələri daha da kəskinləşdirir və onların ağır nəticələri getdikcə dərinləşirdi. Fəlakətin miqyası o dərəcəyə çatdı ki, SSRİ-nin dağılması ərəfəsində Azərbaycan iqtisadiyyatı, nəinki 1985-ci ilin səviyyəsinə nisbətən artmadı, hətta onun sənayesinin, kənd təsərrüfatının və başqa mühüm sahələrində istehsal həcmi həmin həddən də xeyli aşağı oldu.

Azərbaycan xalqının israrlı və qəti tələbi ilə müstəqil milli dövlət qurulması naminə ölkəmizin idarə edilməsinin tale sükanı 1993-cü ilin ortalarında böyük müdrikliyi, uzaq görən siyasətçi qabiliyyəti, cəsarətli iradəsi və yüksək vətənpərvərlik amalı ilə tarixin möhkəm sınaqlarından çıxmış cənab Heydər Əliyevə verildi. Beləliklə, Azərbaycan xalqının növbəti təlatümlü həyatının ağır məsuliyyətli dövrü yenə də Heydər Əliyevin qismətinə nəsib oldu. Ona miras qalmış ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatı son dərəcə açınacaqlı vəziyyətdə idi. Ölkənin o dövrə qədərki biri-birini tez-tez əvəz edən naşı rəhbərlərinin məsuliyyətsiz əməlləri nəticəsində, habelə xaricdə mənfur iftiraçı erməni təbliğatının təsiri ilə ölkənin beynəlxalq aləmdə nüfuzu aşağı düşmüş, daxildə isə özbaşınalıq hökm sürməklə, iqtisadiyyat ağır böhran məngənəsində günü-gündən dağılırdı. Onu demək kifayətdir ki, 1991-1993-cü illər arasında ölkədə ümumi daxili məhsulun və sənaye istehsalının həcmi 2 dəfə, kənd təsərrüfatı istehsalı 40 faiz, əsaslı vəsait qoyuluşu 3 dəfə, yük dövriyyəsi 4 dəfə azalmışdı.



Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və dövlətçiliyimizin möhkəmləndirilməsi sahəsində möhtərəm Heydər Əliyevin əzmlə həyata keçirdiyi uğurlu siyasət nəticəsində tezliklə ölkənin ictimai-siyasi mühitində möhkəm sabitlik yarandı, cəbhədə atəşkəsə nail olundu və respublika haqqında əsl həqiqətlərin dünyaya çatdırılması ilə onun beynəlxalq aləmdə etibarlı dayaqları ildən-ilə artmağa başladı.

Bütün bunlar ölkədə düşünülmüş və ardıcıl mərhələlər üzrə iqtisadi islahatların həyata keçirilməsinə əlverişli şərait yaratdı. Möhtərəm cənab Heydər Əliyevin yenidən ölkə hakimiyyətinin idarə olunmasına qayıtmasının elə ilk dövrlərindən başlayaraq zəruri iqtisadi islahatların aparılması üçün geniş hazırlıq tədbirləri görüldü. Birinci növbədə onların uğurlu gedişini təmin etmək məqsədilə mühüm və zəruri hüquqi normativ bazanın yaradılması sahəsində işlər genişləndirildi və çoxlu vacib sənədlər qəbul edildi. Bu işlərdə həmin dövrlər ölkədə baş vermiş böyük hadisə barədə xüsusi qeyd etmək çox vacibdir. Heydər Əliyevin böyük müdriklik və uzaqgörənliklə müəyyən etdiyi neft strategiyası, onun gerçəkləşdirilməsinin ilkin halqasını təşkil edən "Əsrin müqaviləsi"nin baş tutması ilə ölkə iqtisadiyyatının inkişafında nəzərə çarpan ümumi canlanma da islahatların uğurla aparılması zəminini xeyli möhkəmləndirdi. Tezliklə ölkədə dövlət mülkiyyətinin geniş miqyaslı özəlləşdirilməsinin birinci proqramı həyata keçirildi. Onun ardınca sonrakı mərhələdə-ikinci dövlət özəlləşdirmə proqramı, orta və iri müəssisələrin özəlləşdirilməsinə başlandı və onun indi uğurla gedişi davam edir. Kənd təsərrüfatında köklü islahatların, xüsusən də torpağın şəxsi mülkiyyətçilərə verilməsi, onun dövlət və bələdiyyə mülkiyyətçiləri arasında bölüşdürülməsi əsasən başa çatdırıldı. Ölkənin idarəetmə strukturlarında, bank-maliyyə, pul-kredit və vergi sistemində islahatların aparılması mütəmadi olaraq uğurla davam etdirilir. Hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində beynəlxalq aləmdə də təsbit olunan nailiyyətlər və respublikada əlverişli investisiya mühitinin ildən-ilə yaxşılaşdırılması xarici kapitalın, nəinki neft sənayesinə, iqtisadiyyatın başqa sahələrinin də inkişafına cəlb edilməsinin miqyasını genişləndirir. Təkcə keçən il Azərbaycan iqtisadiyyatına 10,3 trilyon manat investisiya qoyulmuşdur ki, onun da 7,8 trilyon manatını və ya 75,7 faizini Xarici investisiyalar təşkil edir. Beynəlxalq maliyyə qurumlari ayrı-ayrı dövlətlərlə qurulan səmərəli və etibarlı əməkdaşlıq respublika iqtisadiyyatının bir sıra mühüm problemlərinin həlli üçün zəruri kreditlərin alınmasını təmin edir. "Əsrin müqaviləsi"nin böyük uğurları Xəzərin zəngin karbohidrogen ehtiyatlarının mənimsənilməsinə beynəlxalq şirkətlərin marağının daima artmasına səbəb olur və onun nəticəsidir ki, indiyə qədər 60 milyard dollar həcmində investisiya qoyulmasını nəzərdə tutan 21 beynəlxalq neft kontraktlarının bağlanmasına nail olunmuşdur. "Əsrin müqaviləsi"nə uyğun olaraq 1997-ci ildə "Çıraq" yatağından ilk mənfəət neftin çıxarılması və onun həcminin ildən-ilə artması, Bakı-Novorossiysk şimal neft kəmərinin işə düşməsi, Yeni Bakı-Supsa neft kəmərinin tikilib istifadəyə verilməsi nəticəsində

dünya bazarlarına çıxarılan Azərbaycan neftinin satışından əldə edilən gəlir respublikanın maliyyə imkanlarının xeyli çoxalmasına səbəb oldu və bu imkanlar mütəmadi olaraq artmaqdadır. Əslində başlıca olaraq bu hesaba hazırda Azərbaycanın valyuta ehtiyatlarının həcmi 1,3 milyard dollardan çox olmaqla, 2003-cü ilin dövlət büdcəsinin mədaxil hissəsi 1,2 milyard dollar həcminə çatmışdır. Neft gəlirlərinin artması ilə əlaqədar və onlardan səmərəli istifadə edilməsi məqsədilə, ölkə başçısının fərmanı ilə Dövlət Neft Fondunun yaradılması artıq Azərbaycanın özünün fəal və məqsədli maliyyə siyasəti həyata keçirməsinə şərait yaratmışdır. Hazırda 700 milyon dollardan çox vəsaitə malik olan bu Fondun vəsaitindən iqtisadiyyatın zəruri sahələrinin inkişafına köməklik göstərilir, xalqın rifahının yüksəldilməsi məqsədlərinə sərf edilir, qaçqın və köçgünlərin vəziyyətinin yaxşılaşdırılması üçün istifadə olunur. Əlamətdardır ki, məhz Neft Fondunun imkanları hesabına Azərbaycan artıq iri investisiya layihələrinin gerçəkləşdirilməsində də fəal iştirak etməyə başlamışdır. Bu cəhətdən Azərbaycanın Bakı-Tbilisi-Ceyhan kimi böyük beynəlxalq layihənin həyata keçirilməsinə 30 faiz investisiya qoymaqla fəal iştirakı ölkəmizin gələcək böyük tərəqqisi üçün son dərəcə əhəmiyyətli olan bu tikintinin sürətlə başa çatdırılmasında rolu xüsusilə böyükdür. İslahatların gedişi prosesində və Azərbaycan iqtisadiyyatının dirçəlişinə yönəldilən köklü dəyişikliklər məcrasında təşəkkül etməyə başlamış milli sahibkarlar təbəqəsinə əsaslı kömək etmək və onların fəaliyyətinə məqsədyönlü istiqamət vermək üçün prezidentin fərmanları ilə dövlət səviyyəsində son zamanlar həyata keçirilən daha miqyaslı tədbirlər nəticəsində ölkənin sosial-iqtisadi inkişafının imkanlarının xeyli genişləndirilməsi təmin edilir. Ölkə başçısının respublikada kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər) barədə verdiyi fərmanda yerli iş adamlarının fəaliyyətinin Azərbaycanın qarşıdakı böyük tərəqqisində ən öncül sıralardan birinə çıxarılması vəzifələri və onlara kömək edilmə yolları müəyyən olunmuşdur. Şübhəsiz ki, milli sahibkarların ölkə iqtisadiyyatının bütün istiqamətlərinə fəal nüfuz etməsi ilə qısa vaxt ərzində müxtəlif istehsal sahələrini inkişaf etdirmək olar. Proqramda kiçik və orta sahibkarlığın fəaliyyətinin genişləndirilməsinin zəruri şərtlərindən biri kimi, maliyyə-kredit və investisiya köməkliyi göstərilməsi vəzifəsi qarşıya qoyulur. Sənəddə dövlətin iqtisadi tənzimləmə siyasəti və birbaşa köməyi ilə müxtəlif rəqabət qabiliyyətli məhsulların, xüsusən də onların ixracyönümlü növlərinin hasilatını genişləndirmək üçün müəssisələrin maddi və maliyyə dəstəyi mexanizmlərinin hazırlanmasının əhəmiyyəti xüsusi qeyd edilir. Azərbaycan iqtisadiyyatının çoxsahəli geniş inkişafının təmin olunması bütün regionlarda güclü istehsal potensialını yaratmadan mümkün deyildir. Əsasən respublikanın imkanları əsasında inkişaf etdirilən idxal əvəzedici və ixrac yönümlü istehsal xarakterli məhsullar hasilatının təşkili və genişləndirilməsi üçün müxtəlif rayonlardan ötrü ən aşağı həddə kredit verilməsi və başqa iqtisadi imtiyazlar nəzərdə tutulmuşdur.

Müstəqil Azərbaycanın bütün dövrlərdə sosial-iqtisadi tərəqqisini təmin edən bir mühüm inkişaf amilinin gerçəkləşdirilməsində möhtərəm Heydər Əliyevin



çox böyük tarixi xidmətlərini xüsusi qeyd etmək vacibdir. O, Qədim ipək yolunun dirçəldilməsi ideyasını irəli sürməklə Avropa-Qafqaz-Asiya iqtisadi əməkdaşlıq əlaqələrinin heç zaman görünməmiş yeni yüksək mərhələyə qalxmasının əsasını qoydu. Geocoğrafi strateci mövqeinə və inkişaf etmiş hərtərəfli geniş kommunikasiya şəbəkələri sisteminin böyük imkanlarına görə bu əməkdaşlıq əlaqələrinin əsas özəyini təşkil edən Azərbaycan bununla əslində iqtisadi tərəqqisinin həmişə yüksək mənfəət gətirən çox etibarlı bir inkişaf amilini əldə etdi. Neft strategiyasının həyata keçirilməsinn mühüm tərkib hissəsini təşkil edən Bakı-Tbilisi-Ceyhan əsas neft kəmərinin, habelə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin bu yaxınlarda tikintilərinin başa çatdırılması ilə bu amilin Azərbaycan iqtisadiyyatının inkişafında əhəmiyyəti xüsusilə böyük olacaqdır.

Beləliklə, milli müstəqilliyimizin 10 illik Heydər Əliyev dövrü Azərbaycan həyatının bütün sahələrində olduğu kimi, onun sosial-iqtisadi inkişafında da baş verən köklü dəyişikliklərin ancaq ümumi mənzərəsinə hətta çox qısa baxış belə göstərir ki, ölkə başçısının incədən-incəyə böyük müdrüklüklə müəyyən etdiyi dövlətçilik siyasətinin mahiyyətində ağır bəlalara düçar olmuş respublikanı cəsarətlə xilas edib, son məqsədləri aydın görünən yüksək tərəqqi yoluna çıxarmaqda görkəmli siyasətçi və qüdrətli şəxsiyyətin yorulmaz fəaliyyətinin xalqın taleyində nə qədər əhəmiyyətli olması həqiqətləri öz ifadəsini tapır. Bu qısa dövrün təxminən 3 ili ərzində sürətlə tənəzzülə doğru gedən iqtisadiyyatın dağılmasının qarşısı alındı və ancaq 1996-cı ildən istehsalın bir çox sahələrinin dirçəlməsi zəminində əsas mikroiqtisadi göstəricilər böyük sürətlə artmağa başladı.

Faktlar göstərir ki, 1991-1995-ci illərdə ümumi daxili məhsul hər il 13-20 faiz azalırdısa, son dövrlər respublikada onun ümumi həcmi ildə orta hesabla 8-10 faiz həcmində artır. Nəticədə 1996-2001-ci illərdə ümumi daxili məhsulun 57 faiz artımına nail olundu. 2002-ci ildə isə onun istehsalı 10,6 faiz çoxalaraq 29,6 trilyon manata çatmışdır. Keçən il adambaşına 3,7 milyon manatlıq (756,3 dollar) ümumi daxili məhsul istehsal edilib. UDM-un kəmiyyətcə böyük artımında onun quruluşunun getdikcə Azərbaycanın imkanlarına müvafiq səmərəli təkmilləşməsi yönümü mühüm rol oynayır. İndi UDM-də sənaye 34,9, kənd təsərrüfatı 14,2, tikinti 10,3, nəqliyyat 7,8, rabitə 2,0, sosial və digər xidmət sahələri isə 30,3 təşkil edir.

Əlamətdardır ki, ümumi daxili məhsulun tərkibində iqtisadiyyatın aparıcı sahəsi olan sənayenin yeri ildən-ilə möhkəmlənir. Beləki, 1996-2001-ci illərdə sənaye məhsulunun həcmi 19,3 faiz artıb. Bu artımda diqqəti çəlb edən mühüm cəhət ondan ibarətdir ki, müxtəlif zəruri istehsal sahələrinin mütəmadi olaraq üstün artımı nəticəsində, sənayenin quruluşunda müsbət təkmilləşmə meylləri baş verir. Əvvəlki illərdə olduğu kimi, 2002-ci ildə də onun bu yönümdə inkişafı davam etmişdir. Məsələn, istehsalın həcmi yanacaq sənayesində 2,3 faiz artdığı halda, bu göstərici metallurgiyada 96,6, kimya və neft-kimya müəssisələrində 30,0, tikinti materialları istehsalında 42,0, yüngül sənayedə 8,6, şüşə və çini-saxsı istehsalında 65,5, ağac emalı, sellüloz kağız sənayesində 2,7 faiz təşkil etmişdir.

Azərbaycanın yüksək iqtisadi artımının təmin edən, onun ikinci sahəsi kənd təsərrüfatı da böyük sürətlə, arası kəsilmədən inkişaf yolu ilə gedir. 1996-2001-ci illərdə bu mühüm sahədə istehsalın həcmi 33 faiz, 2002-ci ildə isə 4,1 faiz artaraq, kənd təsərrüfatında məhsul hasilatının ümumi həcmi 6,7 trilyon manata çatmışdır. Yola saldığımız ildə bir sıra mühüm məhsullar istehsalına, o cümlədən taxıl (2,2 milyon ton), kartof (700 min ton), tərəvəz (1 milyon tondan çox) bostan məhsulları, süd məhsulları (1062 min ton), ət (198 min ton) istehsalına görə sahənin inkişaf tarixində ən yüksək səviyyəyə qalxmışdır.

Müstəqillik illərinin iqtisadi dirçəliş dövründə daha çox sahmanlı inkişaf yolu ilə gedən sahələrdən biri də nəqliyyat sektorudur. 1996-2002-ci illərdə nəqliyyatda yükdaşıma xidmətlərinin həcmi 2,6 dəfə artmışdır, 2002-ci ildə isə bu artım 5,7 faiz olmuşdur. Keçən il bütün nəqliyyat müəssisələri 97,9 milyon ton yük və 893,3 milyon nəfər sərnişin daşıyıblar. Yük daşınmasında ən qabaqcıl yerdə avtomobil nəqliyyatı durur. Daşınan yüklərin 54,9 faizi onun payına düşür, sonrakı yerlərdə dəmir yolu nəqliyyatı (17,8), boru kəmərləri (15,7) və dəniz nəqliyyatı (11,6) durur. Sərnişinlərin 86 faizi avtomobil nəqliyyatı vasitəsilə mənzil başına çatdırılmışdır.

Dünya iqtisadiyyatının inkişaf meyllərinə uyğun olaraq Azərbaycanda iqtisadiyyatın dirçəliş dövründə xidmət sferası çox sürətlə inkişaf etdirilir. Məlumdur ki, bu sahənin inkişafı əhalinin rifahının yaxşılaşması ilə bilavasitə əlaqədardır. Odur ki, 2002-ci ildə də göstərilən xidmətlərin həcmi və əmtəə dövriyyəsi xüsusilə çox artmışdır. Yola saldığımız ildə əhaliyə 16,1 trilyon manatlıq istehlak malları satılıb və pullu xidmətlər göstərilmişdir. Keçən il əmtəə dövriyyəsi 9,6 faiz artaraq, onun həcmi 13,4 trilyon manata çatmış, pullu xidmətdə isə 2,7 trilyon manata bərabər olmaqla 7,1 faiz artmışdır.

Məlumdur ki, iqtisadiyyatın inkişafına ayrılan investisiyaların böyük həcmi ölkənin böyük yüksəlişini əks etdirən ən əsas göstəricilərdən biridir.1996-2001-ci illərdə Azərbaycan iqtisadiyyatının inkişafına yönəldilən investisiyaların həcmi 1,8 dəfə artmışdır. Bu göstəriciyə görə, Azərbaycan MDB və bir sıra başqa ölkələr içərisində ən qabaqcıl yerlərdən birini tutur. Keçən il iqtisadi inkişafa qoyulan vəsait xüsusən böyük həcmdə artaraq, (əvvəlki ilə nisbətən təxminən 2 dəfə çox ) o nəinki neft sənayesinin, habelə istehsalın başqa sahələrinin inkişafına da yönəldilmişdir. Azərbaycan iqtisadiyyatının indiki vəziyyətində çox əlamətdardər ki, istifadə olunan investisiyaların 87,8 faizi (9 trilyon manatı) istehsal təyinatlı obyektlərin inşaasına sərf olunur. Ümumiyyətlə, müstəqillik əldə etdikdən sonra ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 12 milyard ABŞ dollarından çox vəsait qoyulmüşdür ki, onun da təxminən 7 milyardını xarici investisiyalar təşkil edir.

Azərbaycan iqtisadiyyatının son dövrlər sürətlə yüksəlişinin gedişi göstərir ki, respublikada islahatlar uğurla həyata keçir, ölkə çox inamla bazar iqtisadi münasibətlər sistemini yaratmaqda müntəzəm olaraq irəli gedir. Bununla əlaqədar xatırlatmaq yerinə düşər ki, 1996-cı ildə ümumi daxili məhsulda qeyri dövlət



müəssisə və təşkilatlarının payı cəmisi 38 faiz təşkil edirdi. Yola saldığımız ilin iqtisadi inkişaf nəticələri isə göstərir ki, UDM-in tərkibində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 73 faiz, sənayedə 53,7 faiz, tikintidə 81,6 faiz, yüklərin daşınmasında 56 faiz, sərnişinlərin daşınmasında 86,3 faiz təşkil edir.Kənd təsərrüfatında, ticarətdə və bir sıra başqa sahələrdə istehsal fəaliyyəti demək olar ki, tam qeyri-dövlət bölməsi vasitəsilə həyata keçirilir.

Azərbaycanın iqtisadi yüksəlişində onun dünyanın aparıcı ölkələri ilə müxtəlif istiqamətlərdə əlaqələrin genişləndirilməsi öz böyük müsbət təsirini göstərir. Ölkəmizə xeyli miqdarı xarici investisiyaların daxil olması, müxtəlif ölkələrin iş adamları ilə müştərək müəssisələrin yaradılması, istehsalın müxtəlif sahələrinin inkişafı üçün kreditlərin alınması və qrantlar ayrılması ilə yanaşı, respublikanın beynəlxalq aləmdə geniş ticarət əlaqələri aparması da onun iqtisadi tərəqqisində müstəsna əhəmiyyət kəsb edir.Keçən ilin hətta tam olmayan göstəricilərinə görə Azərbaycan xarici ölkələrlə 3,3 milyard dollar həcmində ticarət əlaqələri həyata keçirib. Respublikanın iqtisadi əlaqələrinin istiqamətləri və xarakteri ölkədə baş verən bir sıra mühüm prosesin mahiyyətini düzgün qiymətləndirməyə əsas verir. Əvvələ, Azərbaycan İqtisadiyyatının getdikcə çoxsahəli inkişafı ilə əlaqədar, onun xarici ticarət əlaqələri xeyli fəaldır, yəni müsbət saldo ilə başa çatır. İkincisi, respublikanın daxili istehsal potensialının artması meyli dönməz xarakter aldığından onun geniş tələbatı öz imkanları hesabına ildən-ilə daha çox ödənilir və mütəmadi olaraq ixracyönümlü inkişafı artır. Üçüncüsü, Azərbaycan dünya bazarının tələblərinə getdikcə çox uyğunlaşacaq, əvvəlki sovet respublikaları (indiki MDB ölkələri) ilə uzun illərlə yaratdığı ənənəvi iqtisadi əlaqələrin ən səmərəli istiqamətlərini saxlamaqla, daha çox uzaq xarici ölkələrlə əməkdaşlığı genişləndirir. Xarici ölkələrlə ticarətin əmtəə dövriyyəsinin 1,8 milyard dollarını (ümumi həcmin 54,3 faizi) Azərbaycandan ixrac olunan məhsullar, 1,5 milyard dollarlığını (45,7 faiz) isə respublikaya idxal olunmuş məhsullar təşkil etmişdir. Başqa sözlə, xarici ticarət əlaqələri 281,3 milyon dollar məbləğlə müsbət saldo ilə başa vurulmuşdur. Respublikanın keçən il xarici iqtisadi əlaqələrinin 24,6 faizi MDB ölkələrinin, qalan 75,4 faizi uzaq xarici ölkələrin, o cümlədən İtaliya, Fransa, Türkiyə, ABŞ, İsrail, Almaniya kimi ölkələrin payına düşmüşdür.

Azərbaycanın iqtisadi yüksəlişinin başlıca vəzifələrindən biri, xalqımızın həyat səviyyəsinin müntəzəm yaxşılaşdırılması və onun rifahını dünyanın qabaqcıl ölkələrinin səviyyəsinə qaldırmaqdır. Əlamətdardır ki, ölkə başçısının iqtisadi strategiyasının mühüm tərkib hissəsi olan bu vəzifə respublikada məhsuldar qüvvələrin davamlı inkişafı ilə nəzərdə tutulan qaydada ardıcıl olaraq həyata keçirilir.

Xatırladaq ki, 1991-1994-cü illərdə əhalinin pul gəlirləri 3,6 dəfə aşağı düşdüyü halda, 1996-2001-ci illərdə onun bu gəlirləri 2,1 dəfə, təkcə 2002-ci ildə isə 11,4 faiz artmışdır. Sosial yönümlü iqtisadi inkişaf kursu qəbul edilmiş Azərbaycanda bu məqsədin gerçəkləşdirilməsinə xidmət edən, onun dövlət büd-

cəsi məxariclərinin təxminən 60 faizə qədəri sosial yönümlü xərclərdir. Keçən il ölkə əhalisinin pul gəlirlərinin ümumi həcmi 21,2 trilyon manata bərabər olmaqla, onların adambaşına düşən miqdarı 2002-ci ildə 10,5 faiz çoxalaraq 2,6 milyon manat təşkil etmişdir. Əsasən əmək haqqı hesabına əldə edilən bu gəlirlərin həcmi ildən-ilə artır. Məsələn, ölkənin iqtisadi və sosial sahələrində muzdla işləyənlərin orta aylıq əmək haqqı 2002-ci ildə 21,3 faiz artaraq 315,2 min manata bərabər olmuşdur. Bir sıra sahələrdə çalışan işçilərin orta aylıq əmək haqqı bundan xeyli yüksəkdir. Bununla belə əhalinin bəzi təbəqələrində işləyənlərin gəlirləri hələ aşağıdır. Ona görə də dövlət mütəmadi olaraq bu təbəqədən olan insanların maddi rifahını yaxşılaşdırmaq üçün müxtəlif tədbirlər görür. Onların içərisində "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf" üzrə prezidentin təsdiq etdiyi Dövlət Proqramının həyata keçirilməsi tezliklə xalqın ümumi rifahının yüksəldilməsində böyük dönüş yaradacaqdır.

Dövlət müstəqilliyimizin zaman ölçüləri baxımından heç də böyük olmayan Heydər Əliyev mərhələsinin Azərbaycan həyatının bütün sahələrinə, o cümlədən respublikanın sosial-iqtisadi inkişafına gətirdiyi böyük tarixi nailiyyətlərin qısa salnaməsi göstərir ki, bu dövr dövlətçiliyimizin hər cəhətdən möhkəmləndirilməsi strategiyasının ölkə başçısı tərəfindən müdrikcəsinə çox düzgün müəyyən edildiyi kimi, onun ümdə tələblərinin gerçəkləşdirilməsi də ardıcıl olaraq qətiyyətlə və əzmlə həyata keçirilmişdir. Yaranmış bu möhkəm zəmin Azərbaycanın bundan sonrakı dövrlərinin etibarlı, daha güclü tərəqqisinin əsasını təşkil edir.

Bu gün Azərbaycan cəmiyyəti özünün çox həyəcanlı və gələcəyə böyük inamlı günlərini yaşayır. Bakı-Tbilisi-Ceyhan əsas neft boru kəmərinin inşaasına başlanması, yaxın vaxtlarda Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin nəzərdə tutulan tikintisinin həyata keçirilməsi neft strategiyasının başlıca məqsədinin respublikanı dünyanın iqtisadi cəhətdən inkişaf etmiş qüdrətli dövlətlərdən birinə çevrilməsini gerçəkləşdirilməsidir. İqtisadiyyatın başqa zəruri mühüm sahələrinin də güclü inkişafına yönəldilən müxtəlif proqramların hazırlanması və həyata keçirilməsinə başlanması, islahatların davam etdirilməsi, habelə, çoxlu başqa tədbirlər 2003-cü ildən başlayaraq onun daha sürətlə artımına təminat verir. Müəyyən edilmiş proqnozlara görə 2003-cü ildə bütün maliyyə mənbəəlri üzrə iqtisadiyyatın inkişafına investisiya qoyuluşunun həcmi 2,6 milyard ABŞ dolları təşkil edəcəkdir ki, onun da təxminən 2 milyard dolları xarici investisiyaların payına düşür. Bu qayda ilə sonrakı illərdə də vəsait qoyuluşunun həcmi xeyli yüksək olacaqdır.

Bununla yanaşı, Azərbaycanın dövlət büdcəsi də sosial yönümlü istiqamətini davam etdirməklə bərabər, həm də getdikcə daha çox investisiya təyinatlı olacaqdır. Nəticədə proqnozlara görə 2005-ci ildə respublikada ümumi daxili məhsulun həcmi 41,5 trilyon manata qalxacaqdır. Başqa sözlə, onun miqdarı 2002-ci ilə nisbətən, yəni cəmisi 3 ildə 1,4 dəfə artacaqdır. Əslində, Azərbaycan iqtisadi inkişafının güclü artımı isə hələ ancaq 2005-ci ildən sonrakı



dövrdən, yəni böyük həcmdə neftin xarici bazarlara çıxarılması (50 milyon tona qədər) və təbii qazın ixracının təmin edilməsi vaxtlarına təsadüf edəcəkdir. Bu inkişaf proqnozlarını nəzərə alaraq mütəxəssislər hesablamışlar ki, 2020-ci ildə Azərbaycanda 50 milyard dollarlıq milli məhsul istehsal etmək mümkün olacaqdır. Bu isə adambaşına ildə 5 min dollarlıq məhsul istehsal edilməsi imkanlarından xəbər verir. Neft gəlirlərinin artması imkanlarına müvafiq olaraq Azərbaycanın müstəqilliyinin durmadan möhkəmləndirilməsi, xalqın rifahının mütəmadi yaxşılaşdırılması, respublikanın başqa sərvətlərindən daha dolğun və səmərəli istifadə edilməsi, onun regionalında məhsuldar qüvvələrin tarazlı artımı, ölkənin dünya təsərrüfat sistemində möhkəmlənməsi üçün çoxlu zəruri istehsal sahələrinin inkişafı böyük miqyasda həyata keçiriləcəkdir.

Bir sözlə, yaxın gələcəkdə Azərbaycanın iqtisadi inkişafının gözlənilən ancaq ümumiləşdirici göstəricilərinə isnad edərək, böyük əminliklə bu qənaətə gəlmək olar ki, ölkə öz qüdrətli tərəqqisinin yeni yüksəliş mərhələsinin ərəfəsindədir. Heç şübhə yoxdur ki, Azərbaycanın bu növbəti yüksək inkişaf zirvəsinin əvəzsiz ilhamvericisi kimi, onun qurucusu olmaq haqqı yenə də tarixi şəxsiyyət, möhtərəm cənab Heydər Əliyevin qismətinə nəsib olacaqdır.